Azərbaycanın vergi xəbərləri

UOT 339.9

# Avropa İttifaqının genişlənməsi və Avropa Qonşuluq Siyasəti: müqayisəli təhlil və qiymətləndirmə



**Bayramov Şahin Vaqif oğlu***
Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı

## Xülasə

*Tədqiqatın məqsədi* - Avropa İttifaqının Genişlənmə Siyasəti və Avropa Qonşuluq Siyasətinin müqayisəli şəkildə təhlil olunması.
*Tədqiqatın metodologiyası* - müqayisəli təhlil, tarixi yanaşma.
*Tədqiqatın nəticələri* - Avropa İttifaqının Genişlənmə Siyasəti və Avropa Qonşuluq Siyasətinin oxşar və fərqli cəhətlərinin müəyyənləşdirilməsi.
*Tədqiqatın məhdudiyyətləri* - tərəfdaş ölkələrin Avropa İttifaqının Genişlənmə Siyasəti və Avropa Qonşuluq Siyasəti üzrə həyata keçirdikləri tədbirlərə dair məlumatlara giriş məhdudluğu.
*Tədqiqatın praktiki əhəmiyyəti* - Avropa İttifaqının xarici iqtisadi siyasətinin spesifik xüsusiyyətləri üzrə müvafiq informasiya bazasının genişləndiməsi.
*Tədqiqatın orijinallığı və elmi yeniliyi* - Avropa İttifaqının Genişlənmə Siyasəti və Avropa Qonşuluq Siyasətinin ayrı-ayrı meyarlar üzrə müqayisəli və sistemli şəkildə təhlili.

**Açar sözlər:** *Avropa İttifaqının Genişlənmə Siyasəti, Avropa Qonşuluq Siyasəti, Şərq Tərəfdaşlığı.*

## Giriş

Dünyanın aparıcı iqtisadçı-ekspertləri XX əsrin 2-ci yarısından etibarən Avropa İttifaqı (Aİ) çərçivəsində reallaşmış iqtisadi inteqrasiyanı regional iqtisadi inteqrasiya proseslərinin elmi-nəzəri baxımdan araşdırılması üçün etalon hesab edir. Başqa

* Azərbaycan Dövlət İqtisad Universiteti. AZ1000. Bakı şəhəri, İstiqlaliyyət küç. 6.
sh.bayramov@gmail.com



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

sözlə, regional iqtisadi inteqrasiya üzrə yaradılmış nəzəri konsepsiyaların əksəriyyəti əslində Avropa inteqrasiya modelinə əsaslanır. Şübhəsiz ki, qonşu ölkələrlə münasibətlərin effektiv şəkildə tənzimlənməsi Avropa regionunda inteqrasiya proseslərinin daha sürətlə inkişaf etməsinin əsas səbəblərindən biri kimi çıxış etmişdir.

Bu baxımdan, qonşu ölkələrlə çoxşaxəli əməkdaşlıq üçün hüquqi çərçivəni müəyyən edən Aİ-nin Genişlənmə Siyasəti və Avropa Qonşuluq Siyasətinin mahiyyətinin və məqsədlərinin araşdırılması xüsusi aktuallıq kəsb edir.

## Aİ-nin Genişlənmə Siyasəti və Avropa Qonşuluq Siyasətinin müqayisəsi

Oxşar məqsədlərə malik olmalarına baxmayaraq, Avropa İttifaqının Genişlənmə Siyasəti (*AİGS*) və Avropa Qonşuluq Siyasəti (*AQS*) fərqli alətlərdən istifadə edilməsini nəzərdə tutur. Ayrı-ayrı tədqiqatçılar tərəfindən müqayisəli şəkildə xarakterizə olunan bu siyasətlər Aİ-nin özü üçün kifayət qədər konkret və aydın mahiyyət kəsb edir. Ən sadə anlamda desək, AİGS Aİ-yə üzvolma perspektivinə malik olan ölkələrlə Aİ arasındakı münasibətləri əhatə edir. Bundan fərqli olaraq, AQS hazırda Aİ-yə üzvolma perspektivinə malik olmayan, lakin Aİ ilə sıx əməkdaşlıqda maraqlı olan ölkələrlə Aİ arasındakı münasibətlərin tənzimlənməsinə xidmət edir.

Sözügedən hər iki siyasət Avropada sülh, sabitlik və tərəqqinin təmin olunduğu məkanın Aİ sərhədlərindən kənara çıxmaqla genişləndirilməsi kimi ortaq məqsədə malikdir. Bununla da, Aİ təkcə Avropada deyil, eləcə də bütün dünyada sülh və sabitliyin bərqərar olmasına əhəmiyyətli töhvə vermiş olur [1].

Eyni zamanda, AİGS və AQS iqtisadi yüksəliş və davamlı inkişafın əldə olunmasında həlledici rol oynayan enerji, nəqliyyat, daxili bazar, ətraf mühitin mühafizəsi, iqlim dəyişiklikləri və s. bu kimi sahələr üzrə qarşıya qoyulmuş məqsədlərə çatması üçün Aİ-yə yardımçı olur və hər iki siyasət Aİ-nin 2020-ci ilə qədər başa çatdırılması nəzərdə tutulan islahatlar üzrə gözləntilərinin reallaşdırılmasına xidmət edir. Qlobal iqtisadi böhranın nəticələrinin aradan qaldırılması, rəqabətqabiliyyətinin yüksəldilməsi və yeni iş yerlərinin yaradılması baxımından, AİGS və AQS ilə əhatə olunan ölkələrlə iqtisadi inteqrasiyanın dərinləşdirilməsi daha mühüm əhəmiyyət kəsb etmiş olur.

Lissabon Sazişinin qüvvəyə minməsi ilə Aİ-nin xarici siyasətinin daha effektiv, dəqiq və innovativ şəkildə reallaşdırılması üçün yeni imkanlar yaranmışdır. Təkcə onu demək kifayətdir ki, Lissabon Sazişinə əsasən Aİ-nin Xarici İşlər üzrə Ali Nümayəndəsi[1] institunun yaradılması təkcə AİGS və AQS-nin deyil, bütövlükdə Aİ-nin və Aİ üzvü olan 27 ölkənin xarici siyasətinin koordinasiya olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

[1]Eyni zamanda Avropa Komissiyasının Vitse-Prezidenti statusu olan bu nümayəndə faktiki olaraq "Aİ-nin Xarici İşlər Naziri" hesab olunur.

## Aİ-nin Genişlənməsi

AİGS Aİ üçün prioritet olan ciddi təşəbbüslərin (*daha təhlükəsiz, inkişaf edən və stabil Avropa*) real imkanlara çevrilməsi üçün mütərəqqi alət qismində çıxış etmişdir. Məsələn, 15 il əvvəl Qərbi Balkanlar ağır hərbi-siyasi münaqişələrin baş verdiyi və tamamilə dağılma təhlükəsi ilə üzləşən region kimi xarakterizə olunurdu. Məhz Aİ-yə üzvolma perspektivinin təqdim olunması sözügedən regionda sülh və sabitliyin təmin olunmasında həlledici rol oynamışdır.

Eyni zamanda, Aİ-yə üzvolma perspektivini reallaşdırmağa çalışması və siyasi-iqtisadi sistemini bütünlüklə Avropa standartlarına uyğunlaşdırmaq istiqamətində ciddi addımlar atması Türkiyənin sürətlə inkişaf edən regional güc mərkəzinə çevrilməsini şərtləndirmişdir [2].

Bütün bunlar onu göstərir ki, Aİ-yə üzvolma perspektivinə malik olan, başqa sözlə AİGS ilə əhatə olunan bütün ölkələr məhz Aİ dəyərlərinə əsaslanan modelin yaradılmasına çalışırlar. Bu isə, Aİ-nin hələ də kifayət qədər cəlbedici iqtisadi inteqrasiya bloku olması və son illər ərzində AİGS-nin uğurla reallaşdırılması ilə izah oluna bilər. Belə ki, Aİ-yə sonradan üzv olmuş ölkələrdə demokratik ictimai-siyasi sistem, qanunun aliliyi, insan hüquqlarına hörmət və təkmil bazar iqtisadiyyatı bərqərar olmuşdur.

Nəzərə almaq lazımdır ki, Aİ-yə üzvolma perspektivinin reallaşdırılması olduqca mürəkkəb və çətin proses olmaqla uzunmüddətli üzvolma danışıqlarının aparılmasını və hərtərəfli islahatların həyata keçirilməsini tələb edir. Aİ-yə üzvolma prosesi hər bir ölkə üçün spesifik xarakter kəsb etməsi ilə xarakterizə olunur [3].

Təcrübə göstərir ki, mahiyyət etibarilə xarici siyasət strategiyasının elementi olan AİGS reallıqda bu çərçivədən çox kənara çıxır. Belə ki, Aİ-yə üzvolma prosesi siyasi, iqtisadi və sosial islahatların həyata keçirilməsi üçün ən mütərəqqi mexanizm təqdim etmiş olur.

Nəticə etibarilə, Aİ üzvlüyü Avropada sabitliyin və tərəqqinin təmin edilməsi üzrə ortaq məqsədlərə çatmaq üçün etibarlı zəmanət hesab olunur. Lakin, hər hansı bir ölkənin Aİ-yə üzv qəbul olunması həmin ölkənin siyasi, iqtisadi, hüquqi və inzibati üzvolma meyarlarına tam cavab verməsindən sonra mümkündür. Bu isə üzvolma prosesinin nə qədər kompleks və vaxt tutumlu olmasını bir daha təsdiqləyir [4].

Hər hansı beynəlxalq sazişdən, ticari və iqtisadi əməkdaşlıqdan daha üstün fenomen olan Aİ-yə üzvolma ilk növbədə ortaq Avropa dəyərlərinin bərqərar olduğu yeni bir məkanın tapılması anlamına gəlir. Aİ-nin genişlənməsi təcrübəsi göstərir ki, Aİ-yə üzv olmaq istəyən ölkənin irimiqyaslı iqtisadi və siyasi islahatlar həyata keçirməsi, milli qanunvericiliyinin isə 60%-nə qədər hissəsinin Aİ qanunvericiliyinə uyğunlaşdırması zəruridir.

Xüsusi vurğulamaq lazımdır ki, namizəd ölkənin Aİ üzvlüyünə qəbul olunması prosesi yalnız həmin ölkənin üzvolma tələblərinə 100% cavab verdiyi halda başa

çatır və bu zaman hər hansı ölkəyə müəyyən güzəştlər edilməsinə yol verilmir. Namizəd və potensial namizəd ölkələr üçün Aİ tərəfindən spesifik üzvolma çərçivəsi təqdim olunur və əksər hallarda həmin ölkələrə Aİ-nin və ya hər hansı Aİ üzvünün texniki dəstəyi göstərilir [5].

Ümumiyyətlə, Aİ üzvü olmaq istəyən istənilən ölkənin aşağıda sadalanan Kopenhagen meyarlarına cavab verməsi birmənalı şərt hesab olunur:

- ❑ Demokratiyanın və qanunun aliliyinin təmin olunması (*bunun üçün siyasi və hüquqi sistemdə ciddi dəyişikliklərin edilməsi tələb olunur*);
- ❑ Təkmil bazar iqtisadiyyatının və daxili bazarda rəqabət qabiliyyətinin təmin olunması (*bunun üçün hərtərəfli iqtisadi islahatların aparılması tələb olunur*);
- ❑ Aİ üzvlüyündən irəli gələn öhdəliklərin yerinə yetirilməsi imkanı.

Qeyd edək ki, son illər ərzində AİGS ilə əhatə olunan namizəd və potensial namizəd ölkələrin Aİ-yə üzv olması istiqamətində əhəmiyyətli irəliləyişlər əldə olunmuşdur.

Buna misal olaraq, Albaniya, Makedoniya, Monteneqro, Serbiya, Bosniya və Hersoqovina ilə Aİ arasında liberallaşdırılmış viza rejiminin tətbiq olunmasını, eləcə də, Türkiyədə konstitusiya islahatlarının aparılmasını göstərmək olar. Eyni zamanda, Balkan ölkələrinə münasibətdə Stabilləşdirmə və Assosiasiya Sazişlərinin (*Stabilization and Association Agreements*) tətbiq olunması, Monteneqroya namizəd ölkə statusunun verilməsi, İslandiya ilə üzvolma danışıqlarının başlanması, Xorvatiya ilə aparılan üzvolma danışıqlarının son mərhələyə qədəm qoymasını da Aİ-nin genişlənməsi istiqamətində atılan addımlar kimi qeyd etmək lazımdır.

Stabilləşmə və Assosiasiya prosesinin məntiqi nəticəsi olaraq Kosovodakı proseslərin tənzimlənməsi Aİ-nin genişlənməsi prosesinin Avropa kontinentində olan münaqişə ocaqlarının aradan qaldırılmasında və sülhün təmin olunmasında mühüm rol oynadığını göstərdi.

## Avropa Qonşuluq Siyasəti

Üzv ölkələrlə Aİ-dən kənarda olan ölkələr arasında ayırıcı xətlərin aradan qaldırılması məqsədi daşıyan AQS Aİ-nin 2004-cü ildəki tarixi genişlənməsindən sonra irəli sürülmüşdür. Xüsusi vurğulamaq lazımdır ki, AQS fərqli coğrafiya, iqtisadiyyat, tarix və mədəniyyət ilə xarakterizə olunan və üç kontinentdə yerləşən 16 ölkəni əhatə edir. Bu qədər ölkənin vahid bir siyasət çərçivəsində birləşdirilməsini iki amil ilə izah etmək olar. İlk növbədə, tərəfdaş ölkələrin bir çox ortaq təşəbbüslərə (*yoxsulluğun azaldılması, demokratik mühitin inkişafı və s.*) malik olması Aİ-nin onlar üçün vahid proqram irəli sürməsinə imkan vermişdir. İkincisi, Aİ-nin təməl prinsiplərinə və dəyərlərinə əsaslanması AQS-nin bütün tərəfdaş ölkələrdə tətbiq olunmasını mümkün etmişdir [6].

Effektiv tənzimləmə, qanunun aliliyi, demokratiya və insan hüquqlarına hörmət AQS-nin əsasında dayanan əsas dəyərlərdir. Başqa sözlə, Aİ AQS-yə daxil olan ölkələrdə sadalan dəyərlərin bərqərar olmasına xidmət edən islahatların aparılmasını təşviq edir. Bu məqsədə çatmaq üçün Aİ tərəfindən aşağıdakı istiqamətlər üzrə tədbirlər həyata keçirilir [7]:

- tətəfdaş ölkələr tərəfindən həyata keçiriləcək islahatlar paketinin razılaşdırılması (Fəaliyyət Planları);
- tərəfdaş ölkələrə texniki yardım və maliyyə dəstəyinin göstərilməsi;
- tərəfdaş ölkələr üçün Aİ-nin vahid bazarına inteqrasiya imkanlarının təqdim olunması;
- Aİ ilə tərəfdaş ölkələr arasında insanların hərəkətinin asanlaşdırılması.

Eyni zamanda, Aİ AQS üzrə tərəfdaş ölkələrdə yeni infrastruktur layihələrinin maliyyələşdirilməsinə və biznes mühitinin təkmilləşdirilməsinə, həmin ölkələrin Aİ bazarlarına çıxış imkanlarının artırılmasına xüsusi diqqət yetirir. Bu isə həm Aİ-də, həm də tərəfdaş ölkələrdə iqtisadi sabitliyin möhkəmlənməsinə, eləcə də ticarət və investisiya imkanlarının artmasına şərait yaradır [8].

Aİ tərəfdaş ölkələrdə tətbiq olunan ətraf mühit standartlarının təkmilləşdirilməsi ilə Aİ sərhədləri boyunca torpaq, su və hava çirklənməsinin azaldılmasına və iqlim dəyişiklikləri nəticələrinin aradan qaldırılmasına çalışır.

Leqal miqrasiyanın tənzimlənməsi, qeyri-leqal miqrasiya ilə mübarizənin effektivliyinin artırılması və miqrasiyadan iqtisadi inkişafın sürətləndirilməsi amili kimi istifadə olunması AQS-nin prioritet istiqamətlərindən hesab olunur.

AQS-nin tətbiqi səviyyəsi tərəfdaş ölkələrin Fəaliyyət Planları üzrə nəzərdə tutulan islahatları həyata keçirməyə nə dərəcədə maraq göstərməsindən asılıdır. Başqa sözlə, Aİ "daha çoxa daha çox" (*“more for more”*) prinsipinə əsaslanmaqla, daha çox səy göstərən ölkəyə daha geniş əməkdaşlıq imkanları təklif edir. Bu differensial yanaşma həm AQS regionları arasında, həm də regiondaxili ölkələr arasında tətbiq olunur.

Əməkdaşlığa daha konkret xarakter vermək məqsədilə, 2008-ci ildə Aİ Şərq qonşularını (*Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna, Moldova və Belarus*) əhatə edən "Şərq Tərəfdaşlığı" layihəsini irəli sürmüşdür. Bu layihə, qeyd olunan ölkələrin Aİ norma və standartlarına uyğunlaşdırılması vasitəsilə Aİ-nin Şərqində sabitliyin və tərəqqinin bərqərar olmasını hədəfləyir.

Aİ Şərq Tərəfdaşlığına daxil olan ölkələrə Assosiasiya Sazişlərinin razılaşdırlması üzrə danışıqlar aparılmasını təklif etmişdir. Bu tip Saziş daha dərin iqtisadi inteqrasiyanın əldə olunmasını, enerji təhlükəsizliyi sahəsində hərtərəfli əməkdaşlığın yaradılmasını, iqtisadi və sosial inkişafın dəstəklənməsini və viza rejiminin sadələşdirilməsini nəzərdə tutur.

Aİ ilə Ukrayna arasında Assosiasiya Sazişinin imzalanması istiqamətində aparılan danışıqlarda ciddi nailiyyətlər əldə olunmuşdur. Müvafiq Sazişin imzalanması üzrə

danışıqlar Moldova ilə 2010-cu ilin yanvarında, Azərbaycan, Gürcüstan və Ermənistan ilə 2010-cu ilin iyulunda başlanmışdır.

AQS-nin Cənub istiqamətinə dair qeyd etmək lazımdır ki, Mərakeş, İordaniya, Tunis və Misirlə Aİ arasında əməkdaşlığın inkişaf etdirilməsi prioritet əhəmiyyətə malikdir. Avro-Aralıq dənizi Tərəfdaşlığını daha da gücləndirmək məqsədilə 2008-ci ildə mənzil qərargahı Barselonada yerləşən Aralıq dənizi İttifaqı təsis edilmişdir. Regionda geniş miqyaslı iqtisadi layihələrin həyata keçirilməsi, məşğulluğun, innovasiyaların, investisiyaların və inkişafın stimullaşdırılması bu təsisatın əsas hədəfləri olaraq müəyyən edilmişdir. Ətraf mühitin mühafizəsi tədbirlərinin gücləndirilməsi və alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi də əsas prioritetlərdən hesab olunur.

## AQS-nin qiymətləndirilməsi

Aİ tərəfindən müntəzəm olaraq AQS-nin qiymətləndirilməsi həyata keçirilir. İndiyə qədər əldə olunmuş ən mühüm uğurlar qismində tərəfdaş ölkələrdə bir çox sahələr üzrə milli qanunvericiliyin Aİ standartlarına uyğunlaşdırılmasını və Aİ ilə sözügedən ölkələr arasında ticarət dövriyyəsinin davamlı şəkildə artmasını göstərmək olar. Lakin, Aİ demokratiya, qanunun aliliyi və insan hüquqları sahəsində əldə olunmuş proqresin lazımi səviyyədə olmaması qənaətindədir [9].

Həll olmamış münaqişələr (*İsrail-Fələstin, Dnestryanı, Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və Qərbi Saxara*) Aİ-nin qonşuları üçün ən ciddi problem qismində çıxış edir və həmin ölkələr bu münaqişələrin həll edilməsi üçün Aİ-nin dəstəyinə ehtiyac duyurlar.

AQS-nin qiymətləndirilməsi bu siyasət çərçivəsində gələcəkdə həyata keçiriləcək tədbirlərin müəyyən edilməsi üçün əsas sayılır. Vurğulamaq lazımdır ki, həm Aİ üzvləri, həm də tərəfdaş ölkələr AQS çərçivəsində yüksək siyasi əməkdaşlığa və dərin iqtisadi inteqrasiyaya əsaslanan münasibətlərin bərqərar olmasını istəyirlər.

## Nəticə

Hesab edirik ki, Lissabon Sazişinin imzalanması və Aİ-nin Xarici Fəaliyyət Xidmətinin təsis edilməsi Aİ-nin xarici siyasətinin sistemli şəkildə koordinasiya olunmasına, Avropa dəyərlərinin Aİ sərhədlərindən kənarda daha səmərəli yayılmasına və regional münaqişlərin həllində Aİ-nin daha aktiv iştirak etməsinə imkan verəcəkdir.

Son 20 ildə Aİ-nin Şərqə doğru genişlənməsi və üzv ölkələrin sayının 27-yə çatması onun xarakterini əhəmiyyətli dərəcədə dəyişmişdir. Aİ hazırda dünyanın ən

böyük vahid bazarı və aparıcı ixracatçısı, eləcə də ikinci ən böyük birbaşa xarici investisiya mənbəyi hesab olunur. Xüsusi qeyd edək ki, Aİ beynəlxalq miqyasda inkişafa dəstək (development aid) göstərilməsi üzrə aparıcı qüvvə qismində çıxış edir. Lissabon Sazişinin qüvvəyə minməsi Aİ-nin qlobal iqtisadi və siyasi güc kimi potensialının reallaşdırılması üçün daha geniş imkanlar yaratmışdır.

Aİ-nin genişlənməsi və qonşu ölkələrlə münasibətlərini ən ümumi şəkildə belə xarakterizə etmək olar:

- Aİ üzvlərinin sayı 27-yə çatmışdır;
- Genişlənmə siyasəti hazırda 9 ölkəni əhatə edir ki, bunlardan 3 ölkə ilə üzvolma danışıqları aktiv şəkildə davam etdirilir;
- Aİ-nin 16 qonşu ölkəsini əhatə edən AQS proqramı həyata keçirilir.

AİGS ilə AQS arasındakı əsas oxşar cəhət kimi hər iki siyasətin Aİ-nin təməl prinsiplərinə (demokratiya, qanunun aliliyi, insan hüquqlarına hörmət, sülh, sabitlik və tərəqqi) əsaslanmasını göstərmək olar. Sözügedən iki siyasət arasındakı əsas fərq isə AİGS-nin Aİ-yə üzvolma perspektivi olan ölkələri, AQS-nin isə Aİ-yə üzvolma perspektivinə malik olmayan ölkələri əhatə etməsidir.

## İstifadə edilmiş ədəbiyyat:


1. Beyond Enlargement: Commission Shifts European Neighbourhood Policy into Higher Gear, Press Releases. Ref: IP/04/632, Brussels, 12 May 2004.
2. Michael Emerson, "Deepening the Wider Europe", Insight Turkey, Vol. 6, No. 2 (April-June), 2004.
3. Sandholtz W., and Stone Sweet (eds.), European Integration and Supranational Governance, New York: Oxford University Press, 1998.
4. "Wider Europe - Neighbourhood: A New Framework for Relations with our Eastern and Southern Neighbours", Communication from the Commission to the Council and the European Parliament, Brussels, 11.3.2003.
5. Jan Marinus Wiersma, "Wider Europe", PES Position Paper, September 2003.
6. Communication from the Commission to the Council and the European Parliament on Strengthening the European Neighbourhood Policy, Comission of the European Communities, Brussels, 4 December 2006.
7. http://www.europa.eu.int/comm/world/enp.
8. Petr Kratochvil, "The European Union and its Neighbourhood: Policies, Problems and Priorities", The Institute of International Relations, Prague, 2006.
9. "A Strategy for EU Foreign Policy", EU Institute for Security Studies, Report 7, June 2010.

**Байрамов Шахин Вагиф оглы,**
диссертант Азербайджанского Государственного Экономического Университета

## Расширение Европейского Союза и Европейская Политика Соседства: сравнительный анализ и оценка

### Аннотация

*Цель исследования* - сравнительный анализ Политики Расширения Европейского Союза и Европейской Политики Соседства.

*Методология исследования* - сравнительный анализ, исторический подход.

*Выводы исследования* - определение схожих и отличительных особенностей Политики Расширения Европейского Союза и Европейской Политики Соседства.

*Ограничения исследования* - ограничение доступа к информации о мерах по Политике Расширения Европейского Союза и Европейской Политики Соседства стран-партнерам.

*Практическая значимость исследования* - расширение соответствующих информационных баз по внешней экономической политике Европейского Союза.

*Оригинальность и научная новизна исследования* - сравнительный и системный анализ по отдельным критериям Политики Расширения Европейского Союза и Европейской Политики Соседства.

**Ключевые слова:** *Политика Расширения Европейского Союза, Европейская Политика Соседства, Восточное Партнерство*.

**Shahin V. Bayramov**
Ph.D-Student Azerbaijan State Economic University

## The European Union enlargement and the European Neighbourhood Policy: comparative analyze and valuation

### Abstract

*Purpose* - comparative analysis of the Enlargement Policy of the European Union and the European Neighbourhood Policy.

*Design/methodology* - comparative analysis, historical approach.

*Findings* - determining the similarities and differences between the Enlargement Policy of the European Union and the European Neighbourhood Policy.

*Research limitations/implications* - restricting access to data on measures implemented by partner-countries through the Enlargement Policy of the European Union and the European Neighbourhood Policy.

*Practical implications* - expanding the relevant information database on characteristics of the European Union's foreign economic policy.

*Originality/value* – comparative and systematic analysis of the Enlargement Policy of the European Union and the European Neighbourhood Policy by different criteria.

**Keywords:** *European Union Enlargement, European Neighbourhood Policy, Eastern Partnership.*

**JEL Classification Codes:** F02, F15, F59

Məqalə redaksiyaya daxil olmuşdur: 12.02.11.
Təkrar işləməyə göndərilmişdir: 28.02.11.
Çapa qəbul olunmuşdur: 09.03.11